**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**14.10.2025-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 1**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI***

***QƏRARA ALIR:***

I. "2024/2025-ci tədris ilində dekanlığın gördüyü işlərin hesabatı və yeni dərs ilində fakültə kollektivinin vəzifələri" barədə İctimai Səhiyyə Fakültəsinin dekanlığı tərəfindən hazırlanmış və dekan müavini N.Məmmədovanın təqdim etdiyi hesabat qənaətbəxş hesab edilsin

II. ATU-nun Rezidentura və magistratura şöbəsinin müdir müavini Ə.Məmmədovanın illik hesabatı qənaətbəxş hesab edilsin.

III. Kafedra müdirlərinə tapşırılsın ki, əməkdaşların nəzərinə çatdirilsın:

1.2025-2026-ci tədris ilinin payız semestrində 15 oktyabr tarixinə qədər testlər İmtahan mərkəzinə göndərilməlidir.

2. Kafedra tərəfindən İM-ə təqdim olunan testlərin ekspert professor-dosent heyəti tərəfindən yenidən baxılmasına (testlərin tərtibatı zamanı tədris proqramına, istinad edilən ədəbiyyatların tədrisdə istifadə olunan materiallara uyğunluğu, testlərdə 2 və ya daha çox düzgün cavabın olmaması və s.) nəzarət edilsin;

3. Kafedranın ekspertləri tərəfindən hazırlanan və İM-ə təqdim olunan testlərə kafedra müdiri məsuliyyət daşıyır.

III. Kafedraların doktorantların və dissertantların siyahısı 3 iş gün ərzində dekanlığa təqdim olunsun.

İV. Kafedralarda Elmi rəhbərlərin diqqətinə çatdırılsın ki, noyabr ayından etibarən, doktorantlar və dissertantlar Elmi Şuraya illik hesabatlarını təqdim etməlidirlər.

V. Elmi Şuranın qərarları kafedra iclaslarında 3 iş günü müddətində müzakirə olunaraq protokol dekanlığa təqdim olunsun.

VI. Dekanlığa tapşırılsın ki, Elmi Şurada verilən qərarların icrasına nəzarət edilsin.

Sədr: dos. Qalina Qəniyeva

Elmi katib: dos. Gülnarə İbrahimova